

Gülayə

# TƏNHA QUŞUN NAĞILI

*hekayə*

Belə başlamışdı onun nağılı...

Əvvəlini, ilkini iplik-iplik bilirdi. Əhdini kəsən, nəfəsini qaraldan bu bitib-tükənməz yolçuluğa nöqtə qoyacaq son hardaydı, ömrün hansı məqamında, hansı məkanda bəkləyirdi onu?

Xeyli vaxtıydı yorğun qanadlarına bircə dağılmış bir yuva, yenəlgəsi yellər əlində qalmış bir quş lələyi görürdüsə elə o doğma quş səsiylə "sənə bir nağıl danışacağam"-deyirdi. Ancaq nəzərləri dağınıq yuvalara, yellərin əlində yengənə olan o quş lələklərinə dikilib qaldığından başlayacağı nağılın əvvəlini unudurdu.

* * *

İndi eynən anası kimi hansısa qədim, çox qədim bir nağılın əvvəlini haradan başlayacağının qarğaşasını yaşayırdı o quş...

* * *

Elə bil tale, bəxt özünün bütün qəzavü-qədərini, zorunu, zaftasını o zərif, köməksiz quşun başında sınaqdan çıxarmaq istəmişdi. Bu taleyin tufanı o quşun min bir əziyyətlə başa gətirdiyi çöp yuvasına qıymışdı.

Quş əvvəl-əvvəl gözlərinə inanmamışdı. Nədəsə səhv saldığını, yanıldığını zənn etmişdi. Ancaq get-gedə həqiqətin acı reallığını müş balaca yumurtalarının sarısı o budaqları elə bil qana boyamışdı, cürbəcür həşəratlar daraşmışdı bu müsibətin canına...

İlk arzusu, murazı beləcə qalmışdı gözündə, ilk sevinci, layla payı, analıq duyğusu beləcə susdurulmuşdu hansısa əlibaltalı bir insanın namərdliyiylə.

O vaxtdan insan nəfəsi, insan ayağı dəyə bilən yerdən perik düşmüş, uzaq qaçmışdı... Küsmüşdü, ağrınmışdı geniş çöllükdən... Arayıb-axtarmışdı, seçib-sonalamışdı. Nəhayətdə insan ayağı yetib, nəfəsi çata bilməyəcək bir dağ başında, ən pünhan, ağlagəlməz qaya dəliyində qurmuşdu yuvasını. Daha ürəyi tam sakit idi. Körpəcə yavruları göz açmışdı dünyaya. Dimdiklərinin sarısı hansısa uzaq bir xatirəni yaddaşında oyada-oyada böyüyürdü o ətcə balalar. Arada könlü atlana-atlana bir sevinc, bəxtiyarlıq nəğməsini oxumaq istəyirdi. Bir ağız... iki ağız... Cəld də səsini kəsirdi.

Bu sarı rəng sonsuz səhrada yanı üstə yıxılıb qalmış palıd budaqlarını qana boyayan sınmış yumurtalarının xatirəsini amansız bir zalımlıqla yadına salırdı.

Bu dünyanın yeriyən, yürüyən insanı belə... Bu dünyanın sürünən, qıvrılan, yalmanan ilanı belə... Bəs hara üz tutasan, hara qaçasan?

Sonrakı günlərdə doğma yuvasının hər ləleyini, hər çöpünü bir quş dimdiyində özgə yuvalara daşınan gördü. Durub mat-mat tamaşa etməkdən başqa əlindən nə gələcəkdi ki? Yaddaşının dərinliyində anasını xatırladı. Elə durub-durub "sənə bir nağıl danışacağam"-deyirdi. Bəlkə o da haçansa doğma yuvasının hər çöpünün bir quş dimdiyində getməsinin nağılını danışmaq istəyirmiş... Ancaq qıymırmış ki, öz körpə balasının zərif qəlbinə xal düşə, ürəyi qubarlana...

... Növbəti, lap sonuncu yuvasının da aqibəti belə oldu.

Yenə uçan uçdu, dağılan dağıldı, hər quş dimdiyində bir xatirəsi getdi.

Bu dəfə qəfləti çaxan ildırımdan gəlmişdi bəlası.

Əvvəl insandan sınmışdı. Sonra da yurduna ilan süründü...

Bu da təbiət, həmişə şükranlıqla qanad çaldığı göy üzü...

Bütün cismi, ruhu sarsıldı. Bu yerə, göyə üsyan etmək, nalə təpmək istədi. Naəlac nəzərlərlə dönüb son dəfə hərəsi bir kol başında qalmış xatirələrinə boylandı...

Əvvəlki yuvası, ətcəbalaları əfi ağzında gedəndə ağlından keçirmişdi ki, bəlkə bilməyib, yuvasına daşıdığı çör-çöp, palçıq qırıntıları, quş lələkləri kiminsə qisməti imiş, onların halallığını almalıymış. Bəlkə bu viranəlik o səbəbdən qismətinə çıxmışdı?

Bəs indi?

Apaydın xatırlayır...

Həmin gün, balaları əfi ağzında gedəndən bir müddət sonra yanan ürəyini ovutsun deyə yaxınlıqdakı gölməçəyə enib ağzına bir udum su almışdı. Yenə başını dim-dik yuxarı, göy üzünə qaldırmışdı. Düz Tanrıya, böyük Allaha doğru baxa-baxa bilməyərəkdən edə biləcəyi günahlarının əhvini diləmişdi. Sonra yenidən xüsusi bir fədakarlıqla təzə yuvasını qurmağa başlamışdı. Bu dəfə heç yana üz tutmamışdı. Dimdikləri ilə qoyun-qoltuğunun, qanadlarının ən zərif, yumşaq tüklərini çəkib yuvasına döşəmişdi. Özündən özünə yuva qurmuşdu. Bu yeni yuvasının hər çöpünün, ləleyinin özününkü olmasından can rahatlığı tapmışdı. Bunu yer də, göy də, o bir olan Tanrı da görürdü. Bəs niyə belə oldu, niyə bir qəfil ildırımın əlində qaldı hər çıtağası?

... Son ümidini, son gücünü, son hikkəsini toplayıb hər tikəsi bir namərdliyin ağzında getmiş yuvasının sonuncu xatirəsini dimdiyinə götürdü. Qanadlarını geniş açıb sonuncu dəfə o yerlərlə vidalaşırmış kimi dövrə vurdu. Ətrafına göz gəzdirib səmti müəyyənləşdirmək istədi. Ağappaq, pəmbə buludlar əlçim-əlçim yan-yörəsində onunla bərabər taladan-talaya uçmaqda idi. Günəşin qızılı şəfəqləri yan-yörəsini tutmuşdu. Sanki ona təsəlli-təskinlik verirdilər ki, bax, biz səninləyik, sənin yanındayıq, səninlə bir uçuruq və biz özümüz də səninlə eyni taleyi, eyni bəxti yaşayırıq.

O qızılı şəfəqlər, doğma yuvasının əzizdən əziz olan, dimdiyində bircə-bircə daşıdığı çör-çöpü xatırladırdı.

O pəmbə buludlar ulu əcdadlarından nişanə qalan lələklər kimiydi. Elə bil son anda o tənha, bəxtsiz quşu yalqız qoymaq istəməmişdilər.

Dimdiyində son ümidini, yuvasının son yadigarını götürüb qanad çaldı. Qarşıda bitib-tükənməz bir sonsuzluq dayanıb onu gözləyirdi.



anlıq soluq vermək üçün gözlərini yumub bir çimirlik yuxuya getmək istəyirdi. Ancaq ha illah edirdi, onunku yuxuya getmək olmurdu, eləcə huş aparırdı. Bu, yuxuyla ayrılıq arası bir məqam kimiydi. Yəni, gözlərini yumursan. Gün ərzində çəkdiklərin ağır yük kimi kipriklərinin üstünə enir. Elə bilirsən yatmısan. Ancaq yox ey, yatmaq nə gəzir. Bütün olmuşlar kino lentindəki kimi elə bir ucdan gəlib xəyalından keçir, keçir.

Belə başlamışdı onun nağılı...

* * *

Təkcə onun özünün anlayıb duyduğu, nə dediyini havadaca anladığı anası harada ki, dərk etmişdi. Vur-tut bir-iki saat bundan əvvəl ucsuz-bucaqsız səhrada aləmə meydan oxuyurmuş kimi bütün əzəmətilə göylərə baş çəkib dayanan qocaman palıd ağacı kökündən baltalanıb böyrü üstə düşmüşdü. Namərd insan əli qanına qəltan etmişdi onu. Qızğın cıdırların önündə gedən köhlən atın qəfildən elə bil qıçları vurulmuşdu, yıxılıb böyrü üstə qalmışdı. Quş anlaşılmnaz bir halətdə gözünü dolandırıb üst-üstə qalaqlanmış budaqlar, yaşıl-yaşıl yarpaqlar arasından öz yuvasını axtarmışdı. Ancaq daha o yuva da yox idi... Hər tikəsi, nişanəsi bir şaxın, budağın altında qalıb xışmalanmışdı, sivri, üstü sıx çillərlə örtülü Qorxurdu bəxtəvərliyə düşər. Qorxurdu təzədən başlaya hər şey...

Namərdliyin min donu, min əli, min üzü, min bir xisləti olduğunu bilməzdi heç...

Ancaq ağlına gəlməyən başına gəldi...

Sarıdimdik balaları üçün yem axtarışının növbəti dönüşündə yer üzünün ən böyük alçaqlığı ilə üzbəüz qaldı. Bomboş qalmış yuvasında balalarından əsər-əlamət yox idi. Hövlnak ətrafa nəzər yetirdi. Bu ağlagəlməz, kimsəsiz qayalıqlar arasında canlı adına gözünə sarı, dərisi ara-sıra xallarla örtülmüş əfi bir ilan sərələnib özünü günə verirdi.


Təsisçi: Sona VƏLİYEVA

Baş redaktor: İLHAM QULİYEV

Ünvan: Bakı ş. Mətbuat prospekti, 529-cu məhəllə, 25-ci bina
Telefon: 510-61-92, "432-88-45,
Faks: 510-61-93
E-mail: kaspiqazeti@gmail.com

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Lisenziya №022264, Qeydiyyat №V 64

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib. Bazar və bazar ertəsindən başqa hər gün çıxır.

Tiraj: 5000

*Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər*